ədalət.- 2021.- 17 iyun.- S.7.

Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

№ 63 (2244) 17 iyun 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük inkişafa aparan uğurlu yol

**Son günlərin hadisələri təkcə Azərbaycanı və Azərbaycan ünvanlı soydaşlarımızı deyil, bütövlükdə dünyanı böyük maraq, sevinc, heyrət və gerçəyi görmək hissləri ilə bürüyübdü. Belə ki, Şuşada keçirilən möhtəşəm Zirvə Toplantısı, imzalanan Şuşa Bəyannaməsi birmənalı şəkildə Cənubi Qafqazdan, xüsusilə Azərbaycan-Ermənistan münasibətlərində son nöqtənin - zəfərin təntənəsi oldu. Dünya gördü ki, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə - Cənubi Qafqazda bütövlükdə regionda sülhün qarantı olmaqla yanaşı, həm də yeni geosiyasi vəziyyətin layihə müəllifi onun gerçəkləşməsinin həm tərəfdarı, həm də təhlükəsizliyinin birmənalı qarantıdır. Bütün bu proseslərin anbaan izlənilməsi hər kəsə sübut etdi ki, Azərbaycan və Türkiyə işğala qarşıdır, işğalın yolverilməzliyini və müdafiə olunmasını 30 il müddətində dilinə gətirməyən, etiraf etməyən, böyük dünyanın qarşısında ədalətin həm carçısı, həm də özü kimi konkret mövqe tutubdur. Bu isə həm böyük güclərə, həm də bu gün regionda öz maraqlarını artıq gizlətməyən güclərə çağırışdı, mesajdı.**

Məlum olduğu kimi 30 ilə yaxın bir zaman kəsiyində Azərbaycana qarşı aparılan işğalçılıq siyasətinə laqeydlik nümayiş etdirən, biganəlik göstərməklə açıq və gizli şəkildə işğalçıya dəstək verən güclər, ermənipərəst qüvvələr, liderlər hadisələrin bu cür davam etməsini ağıllarına gətirməmişlər. Bu məqamda məşhur deyim yada düşür. Belə ki, ”türk özünə qayıdanda böyük olur” kəlamı indi özünün bütün çalarlarını ortaya qoyubdur. Zaman-zaman prosesin beynəlxalq hüquqa uyğun çözüləcəyini düşünən və BMT-yə, ATƏT-ə, onun Minsk qrupuna, eləcə də böyük dövlətlərin ədalətinə güvənən Azərbaycan Dağlıq Qarabağ probleminin sülh yolu ilə çözüləcəyinə ümid edirdi. Baxmayaraq ki, bütün qanunlar, bütün tarixi gerçəkliklər birmənalı şəkildə Azərbaycanın tərəfində idi. Amma Ermənistanın havadarları onlara hərbi və siyasi dəstək verən güclər məsələnin çözümünə böyük kapitalların və təbliğatın hesabına imkan vermirdilər. Bu da problemin ömrünü uzadır, məsələnin həllini çıxılmaz nöqtəyə çəkib aparırdı. Bütün bunların davamını yurd, Vətən itkisi ilə, qaçqınlıqla üzləşdiyi faciələrlə, ədalətsizliklərlə izləyən Azərbaycan və onun prezidenti ən yüksək tribunalardan bəyan edirdi ki, problemin sülh yolu ilə çözümü baş verə bilməzsə, onda məsələ hərbi müstəvidə həll olunacaq.

Ali baş komandanımız cənab İlham Əliyev özünün bütün açıqlamalarında, görüşlərində, müsahibələrində dünyanın diqqətinə çatdırırdı ki, ”Azərbaycan xalqının səbri sonsuz deyil. Biz öz ərazilərimizdə ikinci Ermənistan dövləti yaradılmasına icazə verməyəcəyik. Biz məsələnin sülh yolu ilə həll edilməsinin tərəfdarıyıq. Amma bu variant alınmazsa, onda biz digər bütün imkanlardan istifadə edərək torpaqlarımızı işğaldan azad edəcəyik!” Həqiqətən də 44 günlük zəfər müharibəsi göstərdi ki, problemin sülh yolu ilə çözümünü istəməyən, ikili siyasət yeridən güclər Azərbaycan ordusunun qarşısında hansısa bir iddia ilə çıxış etmək gücündə deyillər. Xüsusilə ona görə ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmiş, dünyanın tanıdığı, qəbul etdiyi sərhədlərini bərpa etmişdir. Bax elə Şuşa bəyannaməsində də birmənalı olaraq dünyaya çatdırıldı ki, bu gün siyasi, iqtisadi, hərbi gücü bir olan Azərbaycan və Türkiyə onlara qarşı ediləcək, istənilən haqsızlığa qarşı qəti və dərhal cavab vermək qüdrətindədirlər. Bu da o deməkdir ki, bir millətin yumruğu, haqsızlığı, ədalətsizliyi anında susdurmaq gücündədir.



Şuşada keçirilən Zirvə toplantısında imzalanan sənədlər Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın mətbuat üçün etdikləri bəyanatda açıq şəkildə vurğulandı ki, eyni işğaldan azad olunmuş ərazilər bütövlükdə Azərbaycan özünün yeni dövrünü yaşamağa başlayıb. Bu dövrdə daha sürətli inkişaf, daha geniş miqyaslı və qarşılıqlı əlaqələr, eləcə də müasir infrastrukturun yaradılmasını tələb edir. Bunun üçün də hər iki dövlət gərək olan bütün addımları birlikdə atacaqdır. Məsələnin bu cür qoyuluşu ümumiyyətlə, Zirvə toplantısının ilk əks-sədası Ermənistanda da ciddi düşünmək üçün real səbəblərdən biri oldu. Hətta Ermənistanın ilk Prezidenti Ter Petrosyan İrəvan Televiziyasından bəyan etdi ki, ”Artıq bu məsələ bitdi, artıq hər kəs Qarabağın Azərbaycana aid olduğunu qəbul edib, artıq bizim yanımızda heç kim yoxdur. Bunu anlamaq lazımdır”.

Bəli, həqiqətən bu gün dünyanın kar-kor qulağı və gözü açılıbdı. İndi hər kəs görmək istəməsə də, məcburi şəkildə görür ki, Azərbaycan qonşu dövlətlərlə, eləcə də işğalçı ilə heç bir qarşılıqlı iddia və tələb irəli sürmədən öz sərhədləri daxilində iqtisadi əlaqələrin genişlənməsi istiqamətində addımlar atır. Bu da o deməkdir ki, bütövlükdə regionda iqtisadi mənzərə dəyişməyə doğru gedir. Uzaq əsrlərin İpək yolunun yeni versiyası artıq gerçəkləşmək üzrədir. Çindən başlayaraq, Azərbaycandan və Türkiyədən keçməklə ən qısa yolla Avropaya və digər qitələrə, dəmiryollarının çəkilişi, yükdaşımalar az məsrəflə, amma böyük qazanclarla gerçəkləşmək üzrədir. Bu prosesdə də Türkiyə və Azərbaycanın birgə çıxışı günümüzün əsas məsələlərindən biridir. Sevindirici haldır ki, konkret məqsədə çevrilmiş bu məsələnin həllində iki qardaş dövlətə artıq daha çox ölkələr dəstək verir və prosesə qoşulur. Bu da öz növbəsində Azərbaycan həqiqətlərinin tanınması, Ermənistanın məkrli niyyətlərinin faş olması deməkdir. Üstəlik ordumuzun qüdrəti siyasi iradəmiz, həmçinin Azərbaycan Prezidentinin şəxsi nüfuzu da söylədiklərimizin həyata keçirilməsində öz sözünü deyir.

Bu gün Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı məsələni müxtəlif səviyyələrdə qabartmağa çalışan, onu yenidən alovlandırmaq istəyən və bununla da Cənubi Qafqazda söndürülmüş müharibə ocağını atəşləndirmək istəyən güclər ölkəmizin yürütdüyü və xüsusilə Azərbaycan Prezidentinin açıq, həm də qətiyyətli şəkildə bəyan etdiyi siyasi kurs qarşısında çıxılmaz vəziyyətə düşürlər. Əgər bugünlərdə dünya liderlərinin yeni, böyük iyirmiliyin Brüsseldəki Toplantısında Qarabağla bağlı Türkiyə Prezidentinin ABŞ, Fransa, Rusiya, İngiltərə və digər dövlət başçıları ilə apardığı danışıqları gözdən keçirsək, onda görərik ki, artıq həmin dövlətlərin özləri də Dağlıq Qarabağ probleminin itdiyini, məsələnin 44 günlük müharibə ilə çözüldüyünü qəbul ediblər. Bizim Zəfərimiz dünyaya göstərib ki, kimsənin torpağında gözü olmayan Azərbaycan bu müharibə ilə bir milyondan artıq qaçqın və köçkün insanının yurd həsrətinə son qoyub. Qaçqınların öz torpaqlarına qayıdışına şərait yaradıb. Deməli, haqqın, ədalətin bərpası üçün axıdılan şəhid qanı yalnız və yalnız ölkəmizin öz sərhədlərini bərpa edib, üçrəngli bayrağımızı həmin sərhədlərdə qaldırmaq üçün axıdılmışdı. Bu gün Şuşa bəyannaməsi də həmin şəhidlərin ruhuna sayqı və ehtiram ifadəsini özündə əks etdirir.

Bütün dünyanın diqqət mərkəzində olan Azərbaycan və Türkiyə bu iki dövlətin prezidentləri bir millətin qələbəsini, Qarabağ zəfərini, Şuşa təntənəsini dünyaya göstərməklə bildirdilər ki, bu torpaqlar əsl sahiblərinə qovuşdular, bu torpaqların əsl sahibləri də halal qayıdış haqlarını yaşamaq şansını əldə etdilər. Deməli, bütün hallarda söhbət Azərbaycanın ərazi bütövlüyünün bərpası idi.

**Artıq tarixə çevrilməyə başlayan Şuşadakı Zirvə Görüşü Ermənistana və onun havadarlarına bir mesaj oldu. Vurğulandı ki, təxribatlar, terror cəhdləri, yeni müharibə xülyası və digər cəhdlər Azərbaycanı öz yolundan geri döndərə bilməyəcək. Çünki bu yol Türkiyə və Azərbaycanın birgə çəkdiyi böyük iqtisadi inkişafın, təntənənin yoludur.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ